# MİKAYIL MÜŞFİQİN EV MUZEYİNİN VƏ SAYADLAR KƏNDİNƏ GEDƏN YOLUN ƏSASLI TƏMİRİ GÜNÜN REALLIĞI OLMALIDIR

**Tarixlə insan qoşalaşmış həqiqətlərdir. Bu həqiqəti danmaq bütöv bir epoxanı danmaq zərurətidir. Zənnimcə, həyatı da elə bu tərz həqiqətlər zəngin edir...**

Qurub-yaratmaq eşqi ilə ömür sürənlər tarixin bir parçasıdır. Biz bu tarixi gözümüz kimi sevməli və qorumalıyıq. Düşünürəm ki, gənc yaşından könüllərdə məskən salmış tərəqqipərvər şair Mikayıl Müşfiq də tarixin bir həqiqətidir və biz hamılıqla bu fövqəl insana ehtiram göstərməliyik...

Bugünlərdə "Xalq qəzeti" TV-nin aparıcı jurnalisti Kəmalə Abdinovanın nakam şairimiz Mikayıl Müşfiqin Xızı rayonunda olan yeganə ev muzeyindən hazırladığı süjet də elə Müşfiqə olan diqqətin bir təzhürüdür. Mən süjetə baxdım. Süjet məndə heyranlıq və acı təəssüratlar yaratdı. Kəmalə xanıma bir vətəndaş, yazıçı-publisist kimi təşəkkürümü bildirirəm ki, Müşfiqsevərlərə şairin ev muzeyinin indiki durumu haqqında geniş məlumat verdi. Mənim bir ziyalı kimi ürəyim ağrıdı. Muzeyə və Sayadlar kəndinə gedən yolun bərbad olması, muzeyin uzun illərdən bəri təmir olunmaması, orada işləyən işçilərin əməkhaqlarının az olması, xüsusilə də Xızı rayonunun icra



başçısının "Xalq qəzeti" TV-yə "Mikayıl Müşfiqin ev muzeyinin bizə heç bir aidiyyatı yoxdur" deməsi məni əməlli-başlı narahat etdi. Axı bəhsolunan muzey Xızı rayonunun inzibati ərazisində yerləşir. Əslində, İcra Hakimiyyəti mövcud məsələ ilə əlaqədar Mədəniyyət Nazirliyinə yazılı müraciət etməlidir, onlar da vəsait ayırıb muzeyi aidiyyatı üzrə təmir etməlidirlər. Çünki Müşfiq, yuxarıda dediyimiz kimi, bir tarixdir, onu ziyarət etmək üçün insanlar onun adını daşıyan muzeyə axın edir. Oradakı xoşagəlməz vəziyyət həmin insanlarda hansı düşüncələrə yol açar, bu barədə təəssüf ki, əlaqədar təşkilatlar düşünmürlər.

Muzeyin əməkdaşları bildirirlər ki, bu muzeyə tez-tez xarici turistlər gəlir, muzeyin tarixi, kimə məxsus olması ilə maraqlanır, məlumat alır, çəkilişlər edirlər. O muzey xarici turistlərin kamerlaraına belə bərbad vəziyyətdə düşürsə, onlar bizim milli mədəniyyətimiz haqda nə düşünərlər? Təəssüf ki, bunun da fərqinə varan yoxdur.

Müşfiqə, onun yaradıcılığına olan biganəlik xalq olaraq bizim üçün biyabırçılıqdır. O mənada ki, Müşfiqin ev muzeyinə gələn xarici turistlər çəkdikləri video lentləri, foto şəkilləri aparıb öz ölkələrində nümayiş etdirirlər, xalqımızı istəməyən qüvvələr də bundan sui-istifadə edir, bar-bar bağırırlar ki, Azərbaycan xalqı öz ziyalısına, şair və yazıçılarına bax belə münasibət bəsləyir.

İnanıram ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Xızı Rayon İcra Hakimiyyətinin Başçısı "Xalq qəzeti" TV-nin hazırladığı bu video-sujetə baxandan sonra nakam şairimiz Mikayıl Müşfiqin ev muzeyinin və Sayadlar kəndinə gedən yolun əsaslı təmir üçün addım atacaqlar.

Biz xalq olaraq da, dövlət olaraq da Qafqazda birinci sıradayıq. Hətta dünya ölkələri Azərbaycanımıza həsəd aparır, xalqımızın cəsarətinə, gücünə-qüvvətinə heyran qalır. Belə olan halda heç istəməzdik ki, tariximizin bir parçası olan Mikayıl Müşfiqə, onun ev muzeyinə laqeyd yanaşılsın, Müşfiqsevərlər məyus duruma salınsın. Dövlətimiz onsuz da abadlıq və quruculuq işləri üçün kifayət qədər vəsait ayırır. Ümid edirik ki, əlaqədar təşkilatlar yuxarıda bəhs olunan aidiyyatı məsələ - nakam şairimiz Mikayıl Müşfiqin ev muzeyinin və Sayadlar kəndinə gedən yolun əsaslı təmir edilməsi üçün hərəkətə keçərlər.



***HÜSEYN İSAOĞLU MƏMMƏDOV,***
***yazıçı-publisist, AYB-nin və AJB-nin üzvü.***